# Sumqayıtdakı iğtişaş erməni təxribatı idi

*(əvvəli 4 mart tarixli sayımızda)*

Hər zaman əllərinə fürsət düşdükcə, tarixi məqamlardan ustalıqla istifadə edən ermənilər bu planlarını sovetlər durumunda da bacarıqla həyata keçirə bilmişlər. Sadəcə üsullar bir qədər dəyişildi. Yalan və iftiralar, şərləmələr işə düşdü. Sovetlər rejimində üstümüzə açıq silahlı basqınlar edə bilməsələr də, kommunizmin tezis və şüarlarından, eləcə də yuxarı dairələrə, yəni MK-ya (mərkəzi komitəyə) yaxın olan "yan"lardan mahircəsinə istifadə edib torpaqlarımızı yenə də ələ keçirməyi gecə-gündüz düşünmüş, bununçün dəridən-qabıqdan çıxmışlar.

Dağlıq Qarabağı Ermənistana birləşdirmək daşnakların çoxdankı arzusu idi. Amma hər dəfə bunu reallaşdırmaq istəyəndə ermənilərin cəhdləri müxtəlif səbəblərdən boşa çıxırdı. Bolşevizm Cənubi Qafqazda bərqərar olan gündən, yəni 1920-ci ildən başlayaraq ermənilər dəfələrlə bu məsələni gündəmə gətirmiş, ancaq heç nəyə nail olmamışlar. O dövrdə onların ən böyük nailiyyəti isə 1923-cü il iyulun 7-də Dağlıq Qarabağa Azərbaycanın tərkibində Muxtar Vilayət statusunun verilməsi oldu. İşin bu cür məcrada gedişi ilə heç cür razılaşmasalar da ermənilər sonrakı 65 ildə susmaq məcburiyyətində qaldılar. Onlara mane olan bir çox amillər var idı. Ancaq sözsüz ki, əsas amil kommunist ideologiyasına söykənən dəmir rejim idi. O illər ərzində SSRİ-də coxlu işlər oldu, yəni sənayeləşmə və kollektivləşdirmə, Stalin represiyaları, Böyük Vətən Müharibəsi, Xruşov "iliqlaşma"sı, Brejnev "durğunluğ"u, Andropov "nizamintizam"ı və nəhayət, Qorbaçov "yenidənqurma"sı. Bu qədər böyük vaxtın keçməsinə və çoxsaylı hadisələrin baş verməsinə baxmayaraq, ermənilər daim türk və azərbaycanlılara olan nifrəti daxillərində bəslədikləri kimi, bu məsələni də ürəklərinin dərinliklərində gizlədib, onun üzə çıxması üçün məqam, fürsət gözləyirdilər. Ermənilər üçün belə fürsət məhz 1985-ci ildə M.Qorbaçovun hakimiyyətə gəlişi və onun "yenidənqurma"sı ilə əlü düşdü. Ermənilər dərhal bu "yeni qurma"nın onlara xeyirli olacağını hiss edib öz ənənəvi iftira, şərləmə təbliğat maşınlarını işə saldılar. Böyük Hayıstandan, türklərin məzlum ermənilərin başına gətirdikləri vəhşiliklərdən, qədim erməni torpağı Dağlıq Qarabağın azərbaycanlılar tərəfindən zəbtindən və ilaxirə və sairə bu kimi yalan və sayıqlamalarla bol olan çoxsaylı məqalə və kitablar dərc olunaraq dünyaya yayıldı. Ancaq ermənilər 1985-86-cı illərdə hələ də Dağlıq Qarabağla bağlı iddialarını açıq-açığına üzə çıxarda bilmirdilər. Çünki onda Azərbaycanın böyük oğlu Heydər Əliyev ən yüksək postlardan birini, Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tuturdu. Və ermənilərə onun Qarabağ məsələsi ilə bağlı sərt mövqeyi hələ 1965 və 1973-cü illərdən yaxşı bəlli idi. Həmin illərdə daşnakların Dağlıq Qarabağ məsələsinin növbəti dəfə qaldırmaq cəhdləri Heydər Əliyevin dəmir iradəsinə dəyib darmadağın olmuşdu. Ona görə Şaxnazaryanlar, Kaputikyanlar, Balayanlar, Ağanbekyanlar ciddi-cəhdlə onun hakimiyyətdən getməsinə çalışırdılar və buna Heydər Əliyev şəxsiyyətindən hər zaman qorxan ermənipərəst Qorbaçov vasitəsi ilə 1987-ci il oktyabrın 25-də nail ola bildilər. İstər Dağlıq Qarabağ və onun ətrafında baş vern hadisələr, istərsə də Sumqayıt hadisələri Heydər Əliyevin vəzifədən uzaqlaşdırılmasından az sonra baş verdi. Hər zaman Azərbaycanın mövqeyini cəsarətlə müdafiə edən, erməni ekstremistlərinin qarşısını məharətlə alan Heydər Əliyevin vəzifədən getməsi əzəli düşmənlərimizin və onların havadarlarının əl-qolunu açdı. Respublikanın o zamankı səriştəsiz rəhbərliyi isə hadisələrə nəzarət etmək, xalqın təhlükəsizliyinin qeydinə qalmaq əvəzinə Moskvanın tapşırıqlarını yerinə yetirərək tarixi şəxsiyyət olan Heydər Əliyevin əleyhinə qondarma materiallar toplamaqla, Kremlə qucaq-qucaq məlumatlar çatdırmaqla məşğul idilər.

Heç əbəs deyil ki, Heydər Əliyevin vəzifədən kənarlaşdırılmasından cəmi bir neçə həftə sonra, Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi, akademik A.Ağanbekyan 1987-ci il noyabrın 17-də Parisdə, erməni Fransa İnstitutunun və erməni veteranları assosiasiyasının təşkil etdiyi qəbulda çıxış edərək belə sözlər demişdi: "Mən istərdim ki, Qarabağ Ermənistanın olsun, o Azərbaycana nisbətən Ermənistana daha çox bağlıdır. Mən bu istiqamətdə bir təklif irəli sürmüşəm. Ümidvaram ki, yenidənqurma, demokratiya şəraitində həmin problem öz həllini tapacaqdır" ("Humanite", 18 noyabr, 1987-ci il). Bu sözlər Dağlıq Qarabağ hadisələrinin başlanması üçün bir start rolunu oynadı. Həqiqətən də, demək olar ələ hər şey bundan sonra başladı. Erməni tərəfdən dalbadal düşünülmüş siyasi gedişlər edilir, əvvəlcədən hazırlanmış aksiyalar bir-birini tamamlayır, addım-addım məqsədə yaxınlaşdırırdı. Belə ki, Ermənistandan Dağlıq Qarabağa emissarlar daxil olmağa, yerli əhali arasında Moskvanın onları tam dəstəkləməyi haqqında təbliğat aparmağa başladılar. Az bir zamanda bu öz effektini göstərdi və hadisələr ildırım sürəti ilə inkişaf etdi. Stepanakertdə (Xankəndi) və Yerevanda mitinqlər başlandı. Mitinq iştirakçıları Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Ermənistana birləşdirilməyini tələb edirdilər. Rəsmi Bakı isə qəflət yuxusunda idi. Bütün bunlar Azərbaycanda əks reaksiya doğurdu və Bakıda, eləcə də ölkəmizin digər böyük şəhərlərində gənclərin və tələbələrin korkoranə nümayişləri başladı. Moskva susur, özünü neytral müşahidəçi kimi göstərirdi. Bu zaman, Əsgəranda iki azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi. Bir müddət sonra isə Dağlıq Qarabağda və Ermənistanda azərbaycanlıların öz dədə-baba yurdlarından kütləvi şəkildə qovulması prosesi başlandı. Rəsmi Bakı çaşqın vəziyyətdə idi. İlk qaçqınlar Bakıya, Sumqayıta gəlir, başlarına gətirilən fəlakətlərdən, zorakılıqlardan danışır, cavab aksiyaların keçirilməsi tələbi ilə nümayiş və yürüşlər keçirirdilər. Və nəhayət, 1988-ci il fevralın 20-də vilayətin xalq deputatlarının növbədənkənar sessiyası çağırılır və burada DQMV-nin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi haqqında qərar qəbul edilir.

1988-ci ilin fevralında DQMV ətrafında baş verənləri izlədikcə aydın olur ki, bu olayların müəllifləri hər cəhdlə gərginliyi artırmağa çalışıblar. O zaman yetmiş il sovetlərin "xalqlar dostluğu", "beynəlmiləlçilik" ideologiyası üzərində tərbiyə almış azərbaycanlılar üçün belə hərəkətləri anlamaq çətin idi. Ancaq sonradan iyrənc məqsədlər tam aydın oldu. Onlar durmadan vəziyyəti ona görə qızışdırırdılar ki, azərbaycanlıları qanlı aksiyalara sövq edib, bütün dünyaya qəddar, zalım obrazında təqdim edə bilsinlər. Fevralın sonunda bu planı həyata keçirmək üçün artıq hər şey hazır idi. Gərginlik yüksək həddə çatdırılmış, məkan da seçilmişdir - SUMQAYİT.

Bəli, 1988-ci il fevralın 27-29-da "ssenaristlər" Sumqayıt hadisələrini törətməyə nail oldular. Həmin günlər şəhərdə baş vermiş iğtişaşlar nəticəsində müxtəlif millətlərdən olan 32 adam, o cümlədən 26 erməni həlak olmuş, 400 nəfərdən çox adam bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomobil sındırılmış və bir qismi yandırılmışdır. Bütövlükdə şəhərə o vaxtkı qiymətlərlə 7 milyon rubl məbləğində maddi ziyan vurulmuşdur.

Yer üzündə saysız şəhər mövcuddur. Onların arasıda qədim, iri, və möhtəşəmləri də çoxdur. Sumqayıt əslində bu şəhərlər sırasına düşmür, çünki o, nə qədim, nə də iridir. Yaranma tarixi 1949-cu ildən götürülən Sumqayıtın bu gün 500 minə yaxın sakini var. Ancaq heç nəyə baxmayaraq, mənimçün Sumqayıt dünyada ən möhtəşəm, gözəl və əziz şəhərdir. 2000-ci ildən burada xüsusi müxbir kimi çalışdığımdan məni Sumqayıtla çox şey bağlayır. Bu şəhəri çox sevdiyimdən onun sevincinə hər zaman sevinmiş, dərdinə isə şərik çıxıb sidq ürəkdən qəmlənmişəm. 1988-ci ilin fevral hadisələrini də ermənilərin və onların ənənəvi havadarlarının Sumqayıtın başına gətirdiyi böyük bir bəla kimi qəbul edib heç vaxt unutmamışam. Əksinə şahidlərin və sənədlərin vasitəsilə daim bu olayları öyrənib təhlil etmişəm. (Sumqayıt hadisələri ilə bağlı çoxsaylı müsahibə və məqalələrin müəllifiyəm) Təhlillər isə bu hadisələrin bilavasitə Qorbaçov və onun ermənipərəst ətrafının rəhbərliyi ilə SSRİ-nin xüsusi xidmət orqanları və erməni separatçıları tərəfindən hazırlanaraq reallaşdığını aydın göstərir.

Gəlin hadisələrin müəyyən ssenari ətrafında, planlı şəkildə həyata keçirildiyini sübut edən bir sıra məqamlara diqqət yetirək. Əvvəlcə onu qeyd edim ki, hələ hadisələrdən 5-6 gün qabaq şəhərdə heç kimin tanımadığı qrup peyda olmuşdu. Dəstələrə bölündükləri üçün onlara eyni vaxtda şəhərin müxtəlif hissələrində rast gəlmək olurdu. Müşahidələr göstərirdi ki, onların başlıca məqsədlərindən biri də həmin günlər şəhərdə şayiələr yaymaqla çaxnaşma salmaq idi. Maraqlıdır ki, hadisələr səngiyib qurtarandan sonra bu adamların heç biri şəhərdə gözə dəymədi. Çox təəssüflər olsun ki, hadisələri araşdıran hüquq mühafizə orqanları həmin faktların üstündən sükutla keçdilər.

Bildiyiniz kimi, o vaxtlar videokameraların az olması ilə əlaqədar videoçəkiliş elə də yayılmamışdı. Lakin "ssenaristlər" bu hadisələrə elə güclü hazırlaşmışdılar ki, qanlı aksiyalar törədən qrupların hər birində videooperator var idi. Və onlar olaylar baş verəcək konkret yerlərdə çəkilişə hazır olurdular. Təsadüfi deyil ki, şəhərdə baş verən olaylardan dərhal sonra çəkilən materiallar müxtəlif ölkələrin telekanalları ilə yayımlandı.

Eyni zamanda, bəzi faktlar şəhərdə yaşayan ermənilərin böyük əksəriyyətinin bu hadisələrdən çox-çox əvvəldən xəbəri olduğunu təsdiqləyir. Məsələn, fevral ayından qabaq erməni milliyyətindən olan vətəndaşların şəhər dükanlarından böyük məbləğdə malı kreditlə alması, əmanət banklarından pulların çıxarılması və köçüb getməsi faktları versiyanın doğruluğunu aydın şəkildə göstərir.

Bəs, niyə bu hadisələri həyata keçirmək üçün məkan məhz Sumqayıt şəhəri seçildi? Bunun bir sıra səbəbləri var. Hər şeydən əvvəl, Sumqayıt çoxmillətli şəhər idi. Burada kimya və metallurgiya sənayesinin inkişafı ilə bağlı keçmiş SSRİ-nin müxtəlif şəhərlərindən onlarca millətin nümayəndəsi məskunlaşmışdı. Bir də Sumqayıt gənclik şəhəridir. Burada ölkəmizin müxtəlif regionlarından gəlmiş minlərlə gənc yaşayır. Gənclərin beyninə milli zəmində təsir etmək daha asan olduğu üçün təşkilatçılar bu amili də nəzərə almışdılar. Burada baş verənlər ölkənin digər bölgə və şəhərlərində də təzliklə yayıla bilərdi. Təşkilatçılar bu amillərdən istifadə edib hadisələrin əhatə dairəsini genişləndirmək istəyirdilər. Lakin bu istəklərinə tam şəkildə nail ola bilmədilər.

Sumqayıtda baş verən hadisələrdən danışarkən hüquq-mühafizə orqanlarının, xüsusilə də prokurorluğun birtərəfli münasibətini qeyd etməmək olmaz. İşlərin bütövlükdə Moskvanın sərəncamına verilməsi, respublika prokurorluğunun prinsipsiz mövqe tutaraq yaxasını kənara çəkməsi nəticəsində min nəfərdən çox sumqayıtlı təhqir dolu istintaq və işgəncələrə məruz qaldı. Qanlı olayların əsas təşkilatçısı olan "Paşa" ləqəbli Eduard Qriqoryan cəmi 12 il həbs cəzası aldığı halda bu işlərdə əli olmayan Əhməd Əhmədov ən ağır cəzaya - güllələnməyə məhkum edildi.

Olayları diqqətlə öyrəndikdə bu hadisələrin həyata keçirilməsində ən azı iki maraqlı tərəfin mövcudluğu tam bəlli olur. Onlardan birincisi və elə ən əsas təşkilatçısı M.Qorbaçovun rəhbərliyi ilə dünya sosialist sistemi və eləcə də SSRİ-ni dağıtmaq siyasətini həyata keçirən qüvvələr idi. İkinci maraqlı tərəf isə sözsüz ki, Dağlıq Qarabağı Azərbaycandan qopararaq Ermənistana birləşdirmək istəyən erməni millətçiləri olmuşdur. Axı, həqiqətən də, bu hadisələrdən sonra SSRİ kimi nəhəng, necə deyərlər "topdağıtmaz" bir dövlət süqut edərək siyasi meydandan yox oldu. Qarabağ müharibəsi başlandı, 20 faizə qədər torpaqlarımız erməni işğalçıları tərəfindən zəbt edildi, XX əsrin ən böyük qətliamlarında biri olan Xocalı faciəsi və minlərlə azərbaycanlının ölümü ilə nəticələnən neçə-neçə digər qanlı olaylar baş verdi.

Əvvəldən axıra kimi, bütün bu tarixi faktları nəzərdən keçirərkən daha dəhşətli bir məqam üzə çıxır. O da ermənilərin heç vaxt öz murdar məqsədlərindən özbaşına dönməyəcəyidir ki, bugünkü reallıq da bunu sübut edir. Ermənilər işğalçılıq siyasətlərini hazırkı dövrdə də usanıb, çəkinmədən davam etdirirlər. Düzdü, indi onlar öz fitnə dolu planlarını həyata keçirməkdə çox çətinlik çəkirlər. Çünki dünya artıq ermənilərin yalanlarına uymur. Kimin kim olduğunu yavaş-yavaş anlamağa başlayır. Bu gün Azərbaycan da dəyişib və 20-25 il əvvəlki yarıdağılmış, iqtisadiyyatı böhran içində boğulan ölkə deyil. Müasir Azərbaycan dinamik imkişafda olan, sürətlə qabaqcıl ölkələr sırasına inteqrasiya edən bir dövlətdir. Heydər Əliyev dühası ilə yaranan bu dövlət çox sevindiricidir ki, hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə idarə olunaraq görünməyən bir templə tərəqqi edir. Elə bu amillərdir ki, indi ölkə hər sahədə ermənilərin iftira və böhtanlarına kəsərli cavab verib, onların qaniçən arzularını ürəyində qoya bilir. Bu gedişlə Azərbaycan yaxın zamanlarda erməni tapdağı altında qalan torpaqlarını geri qaytarıb öz ərazi bütövlüyünü təmin edəcək. Buna bizim həm mənəvi, həm də hüquqi haqqımız var. Axı bu torpaqlar tarix boyu bizim dədə-babalarımızın yurdobası olub. Ulu öndər Heydər Əliyev təbiri ilə desək "Tarixi dəyişmək qeyr-mümkündür. Əsrlər boyu Qarabağ Azərbaycanın olub və Azərbaycanın da olacaq".

**Söhrab SƏFİYEV,**
**"Respublika".**

Respublika.- 2018.- 11 mart.- S.7.